**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

**FƏLSƏFƏ DOKTORU PROQRAMI ÜZRƏ TƏHSİL ALAN DOKTORANT VƏ DİSSERTANTLAR ÜÇÜN**

**6212.01 – TEATR SƏNƏTİ İXTİSAS FƏNNİ ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ**

# P R O Q R A M I

**BAKI – 2025**

Təhsilin məzmununun sürətli yenilənməsi prosesinə və fənnlərarası inteqrasiyanın güclənməsinə adekvat şəkildə doktoranturaya qəbulun imtahan proqramı da dəyişir, təkmilləşir və zənginləşir. “Teatr sənəti” üzrə doktoranturaya təhsilin magistratura pilləsini Boloniya qiymətləndirmə sisteminə uyğun A və B civarında ballar toplayaraq magistr diplomu almış, müfəssəl nəzəri bilgiyə, sərbəst düşüncəyə, tədqiqat ideyalarına malik, respublika mətbuatında və internet sitələrində elmi-nəzəri məqalələri, resenziyaları dərc edilmiş, yaradıcı fəaliyyətilə, peşəkar rəyləri və mövqeyilə teatr dairələrində özünü tanıtmış, tədqiqat mövzusunun problematikasını və elmi axtarışlarının istiqamətini nişan verən 1 ç.v. həcmində, “Arial” şriftilə, 1.5 intervalla yazılmış referatı bəyənilmiş, “İxtisas” imtahanını uğurla adlamış şəxslər qəbul olunur.

Doktoranturaya qəbulla bağlı təşkil edilən imtahan doktorant və ya dissertant olmağa hazırlaşan şəxsin teatr bilgilərinin ümumi səviyyəsini, sənət təfəkkürünün hüdudlarını, elmi məsələnin, sənət probleminin və ya sənət hadisəsinin mahiyyətinə nüfuz etmək qabiliyyətini aşkarlamağa yönəlir. Ona görə də imtahana elə suallar salınır ki, bu suallar konkret tarixi fakt və olayların sadalanmasını deyil, təzahürün fəlsəfi-estetik aspektinin, teatral mahiyyətinin açılmasını və təhlilini hədəfləyir.

Doktorant və ya dissertant olmaq istəyən şəxs aydın bilməlidir ki, doktoranturaya qəbul imtahanının sualları bakalavr pilləsinin buraxılış, magistr pilləsinin qəbul imtahanlarının suallarından əsaslı şəkildə fərqlənir və tədrisin özündə ehtiva etdiyi bilgilər çərçivəsindən kənara çıxıb bütün teatr mədəniyyətinə dair bilgiləri özündə qapsayır. İddiaçı aydın şəkildə dərk etməlidir ki, bu suallar tələbə-teatrşünasa yox, teatr sənəti üzrə ali mütəxəssisə, peşəkar teatr bilicisinə ünvanlanan suallardır.

Doktoranturaya qəbul üzrə imtahan sualları beş mühüm paket üzrə qruplaşdırılır və teatr bilgisinin bütün sahələrinə, incəsənətin araşdırılma metodologiyalarına aid sualları özündə ehtiva edir:

1. ***Teatr tarixinin öyrənilmə metodologiyaları***
2. ***Dram nəzəriyyəsi fəlsəfə və estetika kontekstində***
3. ***Dramatik və postdramatik teatr nəzəriyyələri***
4. ***Teatr tənqidi fenomenologiya müstəvisində: semiotikası və hermenevtika***
5. ***Tədqiqat mövzusuna dair sərbəst suallar***

**1-ci suallar paketi** Azərbaycan teatrı tarixi də daxil olmaqla dünya teatrı tarixinə dair bütün mövzuları özündə ehtiva eləyir. Tərtiblənmiş suallar bir tək dünya teatrı tarixi faktlarının sadalanmasını yox, faktın tarixi kontekstinin işıqlandırılmasını, həm dünya, həm də lokal məkanın teatrı paradiqmasında "oxunması"nı, siyasi-ideoloji, sosio-kulturoloji, semioloji mahiyyətinin şərhini nəzərdə tutur:

1. Azərbaycan dramaturgiyasında tarixən mövcud olmuş tendensiyaların təhlili.
2. Azərbaycanda teatr rejissurasının inkişaf istiqamətlərinin sosial-siyasi və bədii-estetik mahiyyəti.
3. Azərbaycan teatrı maarifçilik ideyalarına refleksiya kimi: maarifçiliyin pozitiv və neqativləri kontekstində
4. Azərbaycan teatrşünaslığında nəzəri araşdırmaların əsas istiqamətləri.
5. Azərbaycan aktyor sənəti ənənələrini formalaşdıran amillər.
6. Azərbaycan teatrşünaslığında aktyor sənətinin tədqiqi istiqamətləri və problemləri.
7. A.P.Çexov dramaturgiyasının janr özünəməxsusluğu: Çexov komediyalarının səhnə həllində forma və məzmun nisbətinin gözlənilməsi.
8. Brodvey Amerika teatr mədəniyyətinin əsası kimi.
9. Huən Fən-çonun "Nurlanmış ruhun aynası" risaləsi və klassik Çin teatr estetikası.
10. Antonen Artonun teatr görüşləri "Teatr və onun oxşarı" kitabında.
11. Ənənəvi Şərq teatr formalarında tamaşa əcdadların ruhu ilə əlaqə aktı kimi.
12. Vanemuyne Teatrının repertuar siyasətinə dair.
13. Vayanq tamaşalarının növləri. Kölgə – siluet – yastı marionet kukla – həcmli taxta kukla keçidlər silsiləsində qanunauyğunluğun aşkarlanması.
14. İntibah dövrü İtaliya komediya janrının iki inkişaf istiqaməti. Alimanə komediyada satira və realizm elementləri.
15. Alman teatrşünaslığı Maks Hermanndan Hans Tis Lehmana kimi.
16. A.P.Çexov adına Beynəlxalq Teatr Festivalı "sərhədsiz mədəni məkan" yaratmaq cəhdi kimi.
17. Yugen yapon Noo teatrından alınacaq zövqün açarı kimi.
18. Təziyələrin və şəbih tamaşalarının ictimai-sosial rolu və mədəni mahiyyəti.
19. K.S.Stanislavskinin aktyorluğu, rejissorluğu və teatr nəzəriyyəsi XX əsrin teatr inqilabı kimi.
20. 1970-80-ci illər Azərbaycan teatrında milli teatr ənələrinin aktivləşməsi: ictimai-sosial və bədii-estetik səbəblər.
21. Müasir teatr rejissurasının dili (L.Ronkoni, R.Kasteluççi, K.Marteler və R.Uilsonun yaradıcılığı əsasında).
22. XX əsr Avropa teatrının inkişafında "Kartelçilər"in rolu.
23. Teatrda mənanın generasiyası problemi (E.Fişer-Lixtenin "Teatrın işarəvi dili" məqaləsi əsasında).
24. Çağdaş teatr konsepsiyalarının ictimai-siyasi mahiyyəti.
25. Şərq və Qərb teatrlarının inteqrasiya problemləri.

**2-ci suallar paketi** teatr sənətinin müxtəlif inkişaf dönəmlərində teatrla bağlı formalaşmış fəlsəfi fikrin xüsusiyyətlərinə, ayrı-ayrı dövrlərdə mövcud teatr estetikasına dair suallardan tərtiblənmişdir. Bu suallar paketində "teatr hadisəsi və onun fəlsəfi-estetik diskursu" aktuallaşdırılır:

1. Ədəbi personajların yeddi arxetipi və onların mahiyyəti.
2. Teatrşünaslıqda tədqiqat obyekti və predmetinin seçilməsi prosesində metodoloji əsaslandırılma.
3. XVI əsr alman teatrının inkişafına humanizm ideyaları və reformasiya hərəkatının təsiri.
4. Aristotel və Dzeaminin estetik baxışlarında "təqlid" anlayışının müqayisəli təhlili.
5. Skomoroxlar və xalq sənətinin sintetik formaları.
6. Qordon Kreq axtarışları Avropada rejissor sənətinin inkişafına necə təsir etdi?
7. Şopenhauerin estetik görüşlərində komiklik dünyəvi disharmoniyanın təzahürü kimi.
8. Dionis, Vakx, Brumaliya mərasimlərində tamaşa elementləri.
9. Bali ərazisində təşəkkül tapmış milli teatr formalarının təsnifatı.
10. XXI əsrdə teatr araşdırmalarının istiqaməti.
11. Aristofanın "Qurbağalar" əsəri dram nəzəriyyəsinə dair təlimat kimi.
12. Kathakali teatrının personajları və hidlilərin dini görüşləri (quna konsepsiyasına əsasən).
13. A.Kamyunun "Sizif haqqında mif" essesində fəciliyin yozumu.
14. M.Şepkin yaradıcılığı və rus səhnə sənətində realizm problemləri.
15. Teatr semiotikası nədir?
16. Epik teatrın əsas xüsusiyyətləri ("Küçə səhnəsi" məqaləsinin əsasında).
17. Aktyor yaradıcılığının tədqiqi hansı tipoloji aspektlərə söykənir?
18. Q.E.Lessinqin dram nəzəriyyəsində "əməl-hərəkət" anlayışının təfsirinə dair.
19. T.Kantorun "Ölüm teatrı" manifesti həyat, yuxu və yoxluq, teatr janrları arasında sərhədlərin silinməsinə çağırış kimi.
20. Aktyor sənətində semiotik təhlil və struktur tipologiyası (M.A.Zolotonosovun məqaləsi əsasında).
21. Jan Lui Barronun Fransa teatrında yeri və tarixi mövqeyi.
22. Moskva Akademik Bədaye Teatrının truppasının ayrılması.
23. XX əsrin II yarısında Şekspir əsərlərinin "deromantikləşdirilməsi" ənənəsi.
24. R.Lepajın teatr fəaliyyətinin yenilikçi tendensiyaları.
25. Litvada rejissor sənətinin formalaşmasına təsir göstərən amillər.

**3-cü suallar paketi** dram nəzəriyyəsinə aid mövzuları özündə qapsayır. Burada diqqət mərkəzində dram nəzəriyyəsinin terminoloji definisiya xarakterli sualları deyil, dram nəzəriyyəsi tarixində həm fundamental, həm də insurgent rol oynamış nəzəri-fəlsəfi əsərlərin təhlili, əsər müəlliflərinin mövqelərinin şərhilə bağlı suallar dayanır:

1. Tamaşanın zaman dixotomiyası: teatrda sinxronluq və asinxronluq.
2. Qurukula sistemi Şərq fəlsəfi fikrinin təzahürü kimi.
3. Üslub və janr: janrı müəyyənləşdirən amillər.

4. Komik gülüş “inkar” təzahürü kimi.
5. “Sovremennik” Teatrının yaranması: psixoloji realist teatr estetikasında yeni ifadə vasitələri axtarışı.
6. Pyes haradan başlayır? Dramaturji əsərin quruluşu dəqiq ölçülmüş çərçivə kimi.
7. “Yoxsul teatr” ideyası və Y.Qrotovski tamaşaları “transqressiya aktı” kimi.
8. Fəcilik estetik kateqoriyasında azadlıq və zərurət dialektikası.
9. Taufik əl-Hakim yaradıcılığında absurd elementləri.
10. Verbatim tamaşaların səhnə həllində teatrallıq məsələləri.
11. Tamaşanın təhlili hermenevtik proses kimi.
12. P.Brukun “Boş məkan” əsərinin təhlili.
13. Yeni janr yeni memarlıq tələb edir: S. Serlio və A.Palladionun İtaliya teatr memarlığında rolu.
14. Del arte komediyalarında maskaların şəcərəsi və təsnifatı. Maskaların özünəməxsusluğunu müəyyənləşdirən tarixi amillər.
15. Aristotelin “katarsis” anlayışı ilə “Natyaşastra”dakı “rasa” konsepsiyasının müqayisəli təhlili.
16. Brextin dialektik teatr konsepsiyasının mahiyyəti.
17. L.N. Tolstoyun “Şekspir və dram haqqında” oçerkində dramaturgiyaya münasibət.
18. M.A.Çexovun “Aktyor texnikası haqqında” kitabında məşq üsulları.
19. Teatr prosesində sənət nəzəriyyələrinin rolu: teatral proqnozlaşdırma və modelləşdirmə.
20. “Əməl təhlili metodu”nun teatr sənəti üçün alternativsizliyinin səbəbləri.
21. H.Tis-Lemannın “Postdramatik teatr” kitabında medianın teatra təsir mexanizmi.
22. Kristian Lüpa: teatrda palimpsest ideyası.
23. Kabuki teatrı və kinoda “şaquli montaj” prinsipi.
24. K.S.Stanislavskinin ədəbi irsinin teatr təhsilinə təsiri.
25. Moskva Akademik Bədaye Teatrının studiya siyasəti.

**4-cü suallar paketinin** mövzuları dünya teatr tarixində liderlik mövqeyinə yiyələnmiş, öz teatr sistemlərini, dünyanı səhnədə modelləşdirmək formalarını tapmış şəxsiyyətlərin teatr təcrübəsinin nəzəriyyədə semantikləşməsi, öz diskurs və invariantlarını yaratması məsələlərindən doğur, müasir teatr prosesini və teatr tənqidini, teatr semiotikasını hədəfləyir: çağdaş teatr sənətində üslub müxtəlifliyinin səbəblərini, teatrşünaslığın metod və metodologiyalarının şərh və analizini tələb edən edən suallar üzərində qurulur:

1. G.Tovstonoqov yaradıcılığında əməl təhlili metodunun təcəssümü.
2. Corco Strelerin rejissurası.
3. E.Barbanın “Kağız kanoe” kitabı teatr antropologiyası haqqında traktat kimi.
4. Aristotelin “katarsis” anlayışının mümkün yozumları.
5. S.Eyzenşteyn və V.E.Meyerhold yaradıcılığında Şərq teatrına marağın səbəbləri.
6. K.Qoldoni və K.Qotsi yaradıcılıqlarının fərqli dramaturji istiqamətlər kimi müqayisəsi.

7. Taufik əl-Hakim dramaturgiyası və Qərb ekzistensionalizmi.
8. Slavyan xalqlarının mərasimlərində teatr elementləri (Kolyada, İvan Kupala, Yarilanın dəfni və başqaları).
9. XVII əsr İspan teatrında tamaşaların quruluşu və aktyor ifaçılığı.
10. P.Sadovski A.Ostrovskinin milli-məişət zəminli əsərlərinin səhnə təfsirçisi kimi.
11. Hayner Müllerin teatr fenomeni.
12. XVII əsr Fransa klassisizminin fəlsəfi əsası və reqressiv təbiəti.
13. Teatrşünaslığın təhlil metodları və onun müasir humanitar elmlər cərgəsində yeri.
14. Povarskaya küçəsindəki studiyanın qısamüddətli fəaliyyətinin nəticələri.
15. XVIII əsrin əvvəlləri rus teatrında səhnə tərtibatı, qrim və aktyor ifası.
16. A.N.Ostrovski dramaturgiyasına münasibətdə hermenevtik yozumlar.
17. Teatr arxetipik normaların təzahürü qismində.
18. Pine Bauş və Vuppertal rəqs teatrının fəaliyyəti.
19. V.E.Meyerholdun "biomexanika"sı və K.S.Stanislavskinin "fiziki hərəkətlər metodu"nun müqayisəsi.
20. Taqanka Teatrı sovet dönəminin sosial-siyasi aksiyası kimi: Y.Lyubimov rejissurasının prioritetləri.
21. A.Tairovun Kamera Teatrı "emosional dolğunluğu ilə seçilən" tamaşalar məkanı kimi.
22. R.Uilson yaradıcılığı "Berliner ansambl" estetikasına cavab verən rejissura kimi.
23. J.B.Molyer dramaturgiyası: İntibah və maarifçilik arasında.
24. Postsovet dövrü Rusiya teatrı: teatr-studiyalar, teatr mərkəzlərinin, antrepriz teatrların populyarlaşması (P.Fomenko, V.Fokin, R.Viktyuk).
25. Teatr tənqidi fenomenologiya kontekstində

**5-ci suallar paketi** doktorantın müdafiə üçün seçdiyi tədqiqat mövzusunun əsalandırılması, tədqiqatın predmet və obyektilə bağlı qəbul komissiyasının üzvlərini maraqlandıran suallara ətraflı və dolğun cavablar verməli, dissertasiyada istifadə edəcəyi tədqiqat metodlarından ətraflı danışmalıdır.

### *Ədəbiyyat siyahısı və internet-resursları*


1. Авдеев А.Д. Происхождение театра. Элементы театра в первобытном строе. – Л-М.: Искусство, 1959.
2. Ağayeva N.K. Azərbaycan teatr tənqidinin yaranması və təşəkkülü. Bak, “Maarif”, 1996.
3. Ağayeva N.K. Azərbaycan teatr tənqidi və teatrşünaslığın inkişaf problemləri. Bakı, “Elm”, 1997.
4. Anikst A.A. Теория драмы от Аристотеля до Лессинга. – M.: Nauka, 1967. – 458 s. http://rutracker.org/forum/viewtopic.php?t=4628646
5. Асеев Б. Русский драматический театр от истоков до конца XVIII века. М.: Искусство, 1977.
6. Cəfərov C.H. Azərbaycan Dram Teatrı. Bakı, “Azərnəşr”, 1959.
7. Cəfərov C.H. Azərbaycan teatrı (1873-1973). Bakı, “Azərnəşr”, 1974.
8. Cəfərov C.H. Əsərləri. 2 cilddə. Bakı, “Azərnəşr”, 1968-69.
9. Давыдова М. Конец театральной эпохи. – М.: ОГИ, 2005.
10. İsrafilov İ.R. Zaman, Rejissor, Poetika. Bakı, “Elm”, 1999.
11. İsrafilov İ.R. Adil İsgəndərovun teatrı. Bakı,” Mars-Print”, 2000.
12. İsrafilov İ.R. Mehdi Məmmədovun rejissor sənəti. Bakı, Mars-Print, 2000.
13. İsmayılova A.A. Antik teatr. Bakı, APİ, 1967.
14. Гротовский Е. От бедного театра к искусству проводнику. – М.: Артист, 2003.
15. Əlizadə M.Ə. Teatrda seyr və sehr.
16. Kak vseqda – ob avanqarde: antologiya frantsuzkoqo teatralnoqo avanqarda. – M.: Soyuzteatr, 1992.
17. Kərimov İ.S. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. Bakı, Maarif, 2002.
18. Kərimov İ.S. Azərbaycan teatr tarixi. 1-ci cild. Bakı, Elm, 2008.
19. Korniyenko N. Ukrayna teatrı üçüncü minilliyin astanasında. – Bakı, BSU, 2009.
20. Məmmədov M.Ə. Azəri dramaturgiyasının estetik prinsipləri. Bakı, 1968.
21. Qarayev Y. Azərbaycan ədəbiyyatında faciə janrı (Faciə və qəhrəman). Bakı, EA, 1965.
22. Мурина Е. Проблемы синтеза пространственных искусств. — М., Наука, 1982.
23. Ницше Ф. Рождение трагедии из духа музыки (Рождение трагедии, или Эллинство и пессимизм) http://www.100bestbooks.ru/item_info.php?id=10602
24. Rəhimli İ.Ə. Azərbaycan teatr tarixi. Bakı, “Çaşıoğlu”, 2005.
25. Rəhimli İ.Ə. Akademik Milli Dram Teatrı. 2 cilddə. Bakı, “Qapp – Poliqraf”, 2002.
26. Rəhimli İ.Ə. Azərbaycan teatrının estetik prinsipləri. Bakı, Çaşıoğlu, 2004
27. Rəhimli İ.Ə Kəsişən paralellər: Zəfər Nemətov və Azər Paşa Nemət. Bakı, “Çaşıoğlu”, 2004.
28. Sovremennoye polskoye teatrovedeniye https://m.facebook.com/notes/польский-театр-в-москве-polski-teatr-w-moskwie/современное-польское-театроведение-встреча-часть-1/294268587265988/
29. Sultanlı Əli. Antik dövrdə ədəbiyyat və ədəbiyyatşünaslıq məsələləri. Bakı, 1946
30. Sultanlı Əli. Antik ədəbiyyat tarixi. Bakı, 1958.
31. Talıbzadə A.A. Şərq teatrı tarixi. Bakı: Qanun, 2008.

32. Talıbzadə A.A. Mehdi müəmması və ya sənətdə konseptual hamletizm. – Bakı, Elm və Təhsil, 2009.
33. Театроведение Германии: Система координат / Сост. Э. Фишер-Лихте, А. А. Чепуров. СПб.: Балтийские сезоны, 2004. http://www.teatrlib.ru/Library/Ger_studies/ger_studies/
34. История западноевропейского театра в 8 томах. М., “Искусство”, 1955-88.
35. Радциг С.И. История древнегреческой литературы: учебник – 5-е изд. М., Высш. школа, 1982.
36. Русский драматический театр. / Под ред. Б.Н. Асеева. – М., “Просвещение”, 1976.
37. Станиславский К.С. Полное собрание сочинений (в 8 томах). М., “Искусство”, 1954
38. Талыбзаде А.А. Театр и театральность в культуре ислама. Б: Сабах, 2006.
39. Чистякова Н.А., Вулих Н.В. История античной литературы. Москва, “Высшая школа”, 1971.
40. Шпет Г.Г. Театр как искусство // Г.Г. Шпет. Философия и психология культуры. М.: Наука, 2007. – С. 394-411.
41. Шопенгауэр А. Мир как воля и представление. – М.: АСТ, 2007.
42. Ханс-Тис Леманн Постдраматический театр (пер. с нем. Ю. Лидерман) https://vk.com/doc177334183_192006580?hash=0b123f09b7d1b97463&dl=9492775944b6d87215
43. Хейзинга Й. Homo Ludens; Статьи по истории культуры. / Пер., сост. и X 35 вступ. ст. Д.В. Сильвестрова; Коммент. Д. Э. Харитоновича – М.: Прогресс - Традиция, 1997. – ISBN 5-89493-010-3 http://bookz.ru/authors/heizinga-iohan/huizinga/1-huizinga.html